*Abdullazadə Bəylər Əlövsət oğlu, magistrant*
*Bakı Biznes Universiteti,*
*E-mail:beyler_media@mail.ru*

# NEFT SEKTORUNDA İNNOVASİYA SAHİBKARLİĞININ İNKİŞAF İSTİQAMƏTLƏRİ

Azneft İstehsalat Birliyinin neft-qaz sənayesində işgüzar fəallıq strategiyası kimi bir neçə strategiyanın kombinasiyası çıxış edir. Beləki, sahənin iqtisadi inkişaf strategiyasının bazar, planlaşdırma, nəzarət, yüksəliş, marketinq, xarici bazara çıxmaq növləri fərqləndirilir. Bütün bunlar isə öz praktiki həllini Azneft İstehsalat Birliyinin neft strategiyasında tapmışdır [4].

Azneft İstehsalat Birliyinin neft strategiyası sahənin iqtisadi-təsərrüfat fəaliyyətinin həm yaxın, həm də uzaq perspektivlərdəki məqsəd və strategiyasının müəyyən olunmasını özündə əks etdirir. Sahənin məqsədi onun iqtisadi inkişafının əsas istiqamətlərinin konsepsiyasını müəyyən edir. Strategiya isə müəyyən edilmiş məqsədə nail olmaq üçünə saslandırılmış tədbir və proqramların işlənib hazırlanmasını nəzərdə tutur. Bu zaman sahənin elmi-texniki potensialı və onun istehsal-satış imkanları nəzərə alınır. Belə ki, neft-qaz sənayesinin işgüzar strategiyasının işlənib hazırlanması aşağı—dakıları nəzərdə tutur [6]:

1. Neft-qaz sənayesinin və onun ayrı-ayrı struktur bölmələrinin strateji məqsəd və vəzifələrinin formalaşdırılmasını və əsaslandırılmasını;

2. Neft-qaz sənayesinin istehsal-təsərrüfat fəaliyyətinin güclü (müsbət) və zəif (qüsur) tərəflərinin müəyyənləşdirilməsini və araşdırılmasını;

3. Neft-qaz sənayesinin mövcud və gələcəkdə mümkün olacaq istehsal-təsərrüfat fəaliyyətinin son nəticələrinin qiymətləndirilməsini;

4. Neft-qaz sənayesinin mikro və makromühitinin təhlilini, öyrənilməsini və praktikada ondan geniş istifadə olunmasını;

5. Neft-qaz sənayesinin istehsal-təsərrüfat fəaliyyətinin inkişaf alternativlərinin müəyyənləşdirilməsini;

6. Neft-qaz sənayesinin illik büdcəsinin tərtib edilməsini.

Məqsədin müəyyənləşdirilməsi - konkret idarəetmə səviyyəsində idarəçilik qərarlarının qəbul edilməsi deməkdir. Bu, müvafiq strateji vəzifələrin işlənib hazırlanmasını tələb edir.

Neft-qaz sənayesinin spesifik məqsədlərinə aşağıdakılar aiddir [5]:

1. Sahənin hər bir struktur bölməsi üzrə rentabelliyin təmin edilməsi üzrə məqsədlər;

2. Elmi-tədqiqat işləri üzrə məqsədlər;

3. Məhsul satışı üzrə məqsədlər;

4. İstehsal üzrə məqsədlər.

Perspektiv dövr üçün strategiyanın müəyyənləşdirilməsi-hökumət tərəfindən sahədə iqtisadi və sosial inkişafın istiqamətləri əsasında Azneft İB ilə xarici dövlətlər arasında bağlanmış kontraktları nəzərə almaqla işlənib hazırlanır.

Operativ proqramların və onlara müvafiq büdcələrin işlənib hazırlanması-istehsal prosesinin bütün pillələrinin fəaliyyətinin qarşılıqlı əlaqələndirilməsinə və uzlaşdırılmasına, bütün istehsal bölmələrinin mümkün ola biləcək fasilələrinin qarşısını almağa, ahəngdar işin məhsul buraxılışının birqərarlılığının təmin etməyə və s. imkan verir [2].

Konkret meyarların vasitəsi ilə Azneft İB-nin istehsal fəaliyyətinin son nəticələrinin qiymətləndirilməsi sahənin istehsal-təsərrüfat fəaliyyətindəki müsbət və qüsur cəhətləri aşkar etməyə və sahənin iqtisadi inkişafına dair düzgün idarəetmə qərarların qəbul edilməsinə imkan verir.

**İstifadə olunmuş ədəbiyyat:**

1. İmanov Q.C, Həsənli Y.H “Azərbaycanın sosial iqtisadi inkişafının modelləri”, Bakı, 2001.

2. Qasımov F.H “Azərbaycanda dövlət innovasiya siyasəti”, Bakı, 2010.

3. https://www.stat.gov.az/

4. https://socar.az/socar/az/info/printable/company/organization/azneft-production-union

5. http://interfax.az/view/789325/az

6. https://report.az/energetika/azerbaycan-dovlet-neft-sirketinin-socar-azneft-i-stehsalat-birliyin/